

## HƏSƏN ORUCOĞLU

***1954-cü ildə Zəngilan rayonunun Məmmədbəyli kəndində anadan olub. Bədii yaradıcılığa orta məktəbdə oxuduğu illərdən başlayıb. Bir neçə şeir və publisistik kitabın müəllifidir.***

## *TANRI SƏNI QORUSUN*

***Zəngilan rayon məhkəməsinin hakimi çox hörmətli Allahverən Həsənov cənablarına ithaf edirəm.***

Haqda, ədalətdə gördün həyatı,
Zirvələr fəth edən haqqın səsidir.
Üzlərdə təbəssüm, gözlərdə sevinc,
Oyadan qanunun təntənəsidir.

Sən düzlük, doğruluq etalonusan,
Bitib, tükənməyən həqiqət andın,
Xalqına ürəkdən xidmət etməyi
Özünə ən böyük mükafat sandın.

İşiniz şərəfli, peşəniz ağır,
Əməlin bənzəyir dumduru suya.
Qanun keşiyində sadiq əsgər tək,
Nümunə oldunuz bax bu dünyaya.

Əməlin işıqlı, yolun işıqlı,
Canın da sağ olsun, olsun deyirəm.
Elə mayak olan, sevinc bəxş edən,
Bu qanun yolunda baş da əyirəm.

Sən haqqa tapındın, haqqa güvəndin,
Axan sellər haqq yolunda qurusun.
Haqqı pozulanın haqqın qorudun.
O uca Tanrı da səni qorusun!
O uca Tanrı da səni qorusun!